2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Nailə Əsgərovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 31 yanvar 2025-ci il tarixli 18 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 31 yanvar 2025-ci il

Mən, ekspert qrupunun üzvü Nailə Əsgərova 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 68 saylı Sabirabad-Şirvan seçki dairəsinin Qaragüney bələdiyyəsi üzrə qeydə alınmış namizəd Ağacanov Çingiz Atamoğlan oğlunun səsvermə günü həmin seçki dairəsinin 21 və 22 saylı seçki məntəqələrində baş vermiş qanun pozuntularının araşdırılmasına və bununla bağlı müvafiq tədbirlərin görülməsinə dair 31 yanvar 2025-ci il tarixli 18 saylı şikayətini nəzərdən keçirərkən müəyyən etdim:

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci maddəsinin tələbinə görə seçki subyektləri şikayəti müvafiq seçki komissiyasına təqdim edə bilərlər. Şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Göstərilənlərlə müəyyən edilir ki, müraciət Seçki Məcəlləsinin müvafiq tələblərinin pozulması ilə daxil olmuşdur və ona görə də araşdırılması üçün aidiyyati üzrə 68 saylı Sabirabad-Şirvan seçki dairəsinin dairə seçki komissiyasına göndərilməlidir.

Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə əsasən **rəyə gəldim:**

1. 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkilərində 68 saylı Sabirabad-Şirvan seçki dairəsinin Qaragüney bələdiyyəsi üzrə qeydə alınmış namizəd Ağacanov Çingiz Atamoğlan oğlunun 31 yanvar 2025-ci il tarixli 18 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Nailə Əsgərova